# Məkrli niyyətlər, erməni təxribatı, həqiqətlər

## *1988-ci il fevralın 28-də baş vermiş Sumqayıt hadisələrindən 37 il ötür*

**Ermənilər tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlər və təxribatlar törədiblər. Ötən əsrdə bir neçə dəfə baş vermiş erməni-müsəlman qarşıdurmasının davamını planlaşdıran xarici qüvvələr eyni ssenarini təkrarladılar.**



Milli zəmində baş verəcək münaqişə ocağı üçün məkan Sumqayıt seçildi. 1988-ci il fevralın sonlarında Sumqayıt şəhərində törədilən kütləvi iğtişaşlar onlardan biri idi. Zaman göstərdi ki, bu olaylar böyük bir siyasi oyunun başlanğıcı, Azərbaycana qarşı yönəldilmiş separatçılığa, terrorizmə, nəhayət, işğalçılıq hərəkətlərinə haqq qazandırmaq üçün provokasiya idi.

**(davamı 11-ci səhifədə)**



(əvvəli 1-ci səhifədə)

Sumqayıtda törədilən təxribat nəticəsində müxtəlif millətlərdən olan 32 nəfər, o cümlədən 26 erməni həlak olub, 400-dən çox insan yaralanıb, 200-dən çox mənzil talan edilib, 50-dən artıq mədəni-məişət obyekti dağıdılıb, 40-dan çox avtomaşın yararsız hala salınıb, şəhərə böyük maddi ziyan vurulub. Bu hadisələr ermənilərin və onların havadarlarının Azərbaycan xalqı ilə bağlı dünyada mənfi imic yaratmaq məqsədi güdür, həmçinin keçmiş SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ermənilərin özlərilə birgə təşkil etdiyi və həyata keçirdiyi ssenarinin tərkib hissəsi idi. Bu təxribatlar ermənilərin özlərini "məzlum", "yazıq", "əzilən xalq" obrazını yaratmağa hesablanmışdı. Sumqayıt hadisələri sonradan Ermənistanın əlində bir bəhanəyə çevrildi və Qarabağda münaqişənin daha da alovlanmasına gətirib çıxardı. Ermənilər bu gün də Sumqayıt hadisələrindən öz məqsədləri üçün yararlanmağa davam edirlər. Onlar Sumqayıt hadisələri haqda dünya ictimaiyyətində yanlış rəy formalaşdırmağa, anti-Azərbaycan əhvali-ruhiyyəsi yaratmağa çalışırlar. Hər il bu hadisələrin ildönümü yaxınlaşanda erməni təbliğat maşını bütün gücü ilə işə düşür və azərbaycanlılar vəhşi ermənilərə qarşı milli dözümsüzlük nümayiş etdirən bir xalq kimi təqdim olunur.

Sumqayıt hadisələrinə nəzər yetirəndə təxribat törədib, qan axıdanların əslində ermənilərin özü, onların xaricdəki havadarları və keçmiş SSRİ rəhbərliyinin olduğu açıq görünür. İndi artıq obyektiv düşünən hər ağıllı insanda bu, şübhə doğurmur. Hadisələri diqqətlə izlədikdə məhz erməni emissarlarının təcrübəsiz yeniyetmə və gənc azərbaycanlıların vətən heysiyyətinə toxunmaqla cinayətlərə təhrik etməsi və hətta özlərinin də bu cinayətlərdə iştirakı üzə çıxır. "Böyük Ermənistan" yaratmaq arzusu ilə alışıb-yanan erməni millətçiləri üçün hər cür mənfur üsul qəbul olunduğundan özlərindən qurbanlıq seçərək onları öldürüblər. Bu üsul onlara dünya ictimaiyyətinə ermənilərin məzlum, azərbaycanlıların və türklərin isə vəhşi olduqlarını göstərmək, eləcə də gələcəkdə həyata keçirəcəkləri bütün yaramaz hərəkətlərə haqq qazandırmaq üçün zaman-zaman lazım olub. Tarix göstərir ki, bu, ermənilərin əsrlərlə türklərə qarşı istifadə etdikləri üsuldur. Sumqayıt hadisələrini də eyni ssenari üzrə öz dədə-babalarının mənfur davamçıları olan faşist xislətli, alçaq Eduard Qriqoryanlar və onların ənənəvi havadarları törədib. Məqsəd isə Ermənistandakı etnik təmizləməni ört-basdır etmək və Dağlıq Qarabağı ələ keçirmək olub. Həmin hadisələrin epizodlarını nəzərdən keçirəndə bu, qabarıq şəkildə üzə çıxır.

Bu qanlı ssenari ilə guya ermənilərin əzildiyi, haqlarının tapdalandığı dünya ictimaiyyətinə təqdim edilməklə əslində yeni bir mərhələdə azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı, işğalçılıq siyasətinin əsası qoyuldu. Bütün şahid ifadələri Sumqayıt hadisələrinin təşkilatçısının erməni, iki dəfə məhkum edilən Eduard Qriqoryan olduğunu sübut etdi. E.Qriqoryan Sumqayıt hadisələri zamanı beş ermənini şəxsən öldürüb və o, sadəcə icraçı olub. Onu təxribat üçün hazırlayıb, prosesə yönəldərək lazımi vasitələrlə təmin ediblər. Bir sözlə, Sumqayıtda etnik zəmində törədilən iğtişaş həmin dövrdə bu sıradan olan məqsədyönlü təxribatların kulminasiyası idi. Ermənilər ölmüş və yaxud öldürülmüş həmtayfalarından həmişə məharətlə istifadə edirdilər. Ermənilər Sumqayıt hadisələrindən də öz məkrli niyyətləri üçün yararlanmaq məqsədi güdürdülər. Ona görə də bu hadisələr haqda dərhal dünya ictimaiyyətində yanlış rəy formalaşdırmağa, anti-Azərbaycan əhvali-ruhiyyəsi yaratmağa başladılar. Digər tərəfdən, erməni təşkilatları Azərbaycan və Ermənistan arasında qarşıdurmaya dönməz xarakter verməyə, münasibətləri daha da kəskinləşdirməyə, dinc nizamlama perspektivlərini heçə endirməyə çalışır, qanlı terror aktlarını davam etdirirdilər. Baş katib M.Qorbaçovun S.Kaputikyanla Z.Balayanı qəbul etməsi və Əsgəranda öldürülənlərin məhz azərbaycanlı olmaları haqda rəsmi məlumat hər iki tərəfə qızışdırıcı təsir göstərdi.

Sumqayıt şəhərinin əhalisi 1988-ci ildə 258 min nəfər idi və bunun təqribən 18 minini etnik ermənilər təşkil edirdi. 1988-ci ilin fevralına qədər Sumqayıtda etnik zəmində hər hansı qarşıdurma olmayıb. Həmin ərəfədə Ermənistandan zorla çıxarılmış 41 mindən artıq Azərbaycan türklərinin əksəriyyəti məhz Sumqayıtda məskunlaşmışdı və ermənilərin onlara qarşı törətdikləri vəhşiliklərə görə qəzəb içərisində idilər. Bununla da hadisələrdən əvvəl və proses zamanı şəhəri gərginlikdə saxlamaq istəyirdilər. Həmin hadisənin baş verməsində Sumqayıtda yerləşdirilən və Azərbaycan dilini təmiz bilən ermənilərdən ibarət təxribatçı qruplar xüsusi rol oynadı. Erməni milliyyətindən olan 26 nəfərin qətlə yetirilməsini məhz bu dəstələr həyata keçiriblər.

İğtişaşlardan bir neçə gün əvvəl erməni millətindən olan saqqallı və qara gödəkcəli 100-dən çox şəxsdən ibarət təxribat qrupu Sumqayıta göndərilmişdi. Onlar şəhərin "Dalğa" və "Sumqayıt" mehmanxanalarında yerləşdirilmişdir. Şərti olaraq "Nalyotçik" adlandırılan qrupun üzvləri fevralın 27-də küçələrə çıxaraq əhali arasında milli zəmində iğtişaşların həyata keçirilməsi üçün iş aparmağa başladılar. Halbuki hadisələr ərəfəsində və baş verən gün Sumqayıt şəhərində və ətrafında SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və ordu birləşmələrinin kifayət qədər canlı qüvvəsi və texnikası olsa da, vəziyyətin nəzarət altına alınması üçün onlar tərəfindən vaxtında qabaqlayıcı tədbirlər görülmədi. Niyə? Bu sual indi hamıya gün kimi aydındır. Etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirmək üçün Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşdirmək ideyasını təxribatla reallaşdırmaq, eləcə də Ermənistandan azərbaycanlıların zorakılıqla deportasiya etmək idi.

O dövrdə Xankəndidə "Krunk" adlı erməni təşkilatı fəaliyyət göstərirdi. Demək olar ki, bütün qatı millətçilər oraya toplaşmışdılar. Təşkilatın yeganə məqsədi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycandan ayırıb Ermənistana birləşdirmək idi. Bu məqsədlə ermənilərdən kütləvi şəkildə pullar yığılırdı. Sumqayıt ermənilərinin qarşısında da belə bir tələb qoyulmuşdu. İstintaqla Sumqayıt şəhərində yaşayan ermənilərin böyük bir hissəsinin "Krunk" cəmiyyətinə pul vəsaiti köçürdüyü müəyyən edilib. Sumqayıt şəhərində zərərçəkən ermənilərin əksəriyyəti "Krunk" cəmiyyətinə könüllü maddi vəsait köçürməkdən imtina edənlər olub. Belə ki, cinayətkar dəstə bir binaya, bloka daxil olaraq birinci mərtəbələrdə yerləşən erməni millətindən olan sakinlərin evlərinə daxil olmayaraq, yuxarı mərtəbələrdə yaşayan ermənilərin mənzillərinə hücum ediblər. Sonradan məlum olub ki, hücuma məruz qalmayan evlərin sahibləri "Krunk" cəmiyyətinə vaxtlı-vaxtında pul vəsaitləri köçürənlərdir. Şahidlərin ifadələri ilə müəyyən edilib ki, "Krunk" cəmiyyətinə pul köçürən ermənilərin evləri hücuma məruz qalmayıb. Hətta müəyyən edilib ki, erməni millətindən olan musiqiçilər toydan və digər tədbirlərdən əldə etdikləri pul vəsaitinin bir hissəsini "Krunk" cəmiyyətinə köçürüblər.

Sumqayıtın mərkəzi meydanı Azərbaycanın Qarabağ regionunda ermənilər tərəfindən iki gəncin öldürülməsinə etiraz olaraq nümayişçilər tərəfindən tutuldu. Erməni ekstremistləri və təxribatçı agentlər tərəfindən bu etiraz aksiyası iğtişaşa təhrik edildi. İğtişaşı araşdırmaq üçün SSRİ Baş Prokurorluğu tərəfindən cinayət işi başlandı, ölkənin müxtəlif regionlarından cəlb edilmiş 231 nəfər istintaqçı və bir o qədər də əməliyyatçıdan ibarət xüsusi istintaq-əməliyyat qrupu yaradıldı. SSRİ Baş Prokurorluğunun apardığı istintaq nəticəsində iğtişaş zamanı 26 erməni, 6 azərbaycanlı olmaqla, 32 nəfərin öldürüldüyü müəyyən edildi. Məhkəmənin qərarı ilə 92 nəfər uzunmüddətli həbs cəzasına, bir nəfər isə ölüm hökmünə məhkum olundu. Təəssüflər olsun ki, ölüm hökmü azərbaycanlı Əhməd Əhmədov barəsində çıxarılmışdı. Halbuki Sumqayıt ssenarisinin təşkilatçısı Eduard Qriqoryan idi. Lakin SSRİ Baş Prokurorluğu tərəfindən aparılmış istintaqla iğtişaş iştirakçılarının yalnız bir qismi müəyyən edilib məhkəmənin qərarı ilə cəzalandırıldı, SSRİ-nin siyasi rəhbərliyi və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təzyiqləri nəticəsində istintaq məntiqi sonluğa çatdırılmadı, onun təşkilatçıları və sifarişçiləri müəyyən edilmədi.

Bu cinayətin əsl mahiyyətini açmaq, SSRİ Baş Prokurorluğunun üstündən sükutla keçdiyi məqamları araşdırmaq üçün Azərbaycanın qəti siyasi iradəsinin təzahürü olaraq Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi və baş prokurorun 19 mart 2010-cu il tarixli qərarı ilə həmin kütləvi iğtişaşlarla əlaqədar keçmiş SSRİ Baş Prokurorluğu tərəfindən istintaqı aparılaraq sonradan dayandırılmış beş cinayət işinin icraatı təzələnərək vahid icraatda birləşdirildi və istintaqın aparılması Baş prokurorun birinci müavininin rəhbərliyi ilə prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin müstəntiq və əməliyyatçılarından ibarət yaradılmış istintaq-əməliyyat qrupuna həvalə edildi. İstintaq-əməliyyat qrupu tərəfindən həyata keçirilmiş zəruri tədbirlər nəticəsində hadisələrin həqiqi mahiyyəti üzə çıxıb, iğtişaşların sovet rəhbərliyində təmsil olunmuş ermənipərəst qüvvələrin göstərişi ilə əvvəlcədən hazırlanmış ssenari üzrə erməni separatçı qüvvələri tərəfindən törədildiyi müəyyən edilib.

Cinayət işinin materialları bir daha göstərir ki, Sumqayıtın azərbaycanlı sakinlərinin fərdi humanizmi və şücaəti olmasaydı, hadisələr planlaşdırılmış təxribat planına uyğun olaraq daha geniş miqyas alardı. Milliyyətcə erməni olan şahidlərin ifadələrindən göründüyü kimi, onlarla erməni hadisələr vaxtı azərbaycanlı ailələr tərəfindən öz evlərində yerləşdirilməklə xilas edilib. SSRİ dövründə foto-video çəkilişə xüsusi nəzarət və senzura tətbiq olunmasına baxmayaraq, hadisələrin əvvəlcədən qurașdırılmış vasitələrlə foto-video çəkilişi aparılıb və dərhal SSRİ ərazisindən çıxarılaraq erməni lobbi təşkilatları vasitəsilə anti-Azərbaycan kampaniyasının tərkib hissəsi kimi yayılıb.

Ermənistan və erməni lobbisi dairələri tərəfindən Sumqayıt hadisələri qəsdən ölkəmizə qarşı təbliğat və dezinformasiya məqsədilə istifadə edilsə də, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, aparılmış obyektiv və faktlara söykənən istintaq materialları ilə həmin iğtişaşların məhz erməni millətçilərinin və onların havadarlarının öz məkrli niyyətlərinə nail olmaq məqsədilə təşkil edilərək törədilməsi kifayət qədər və təkzibedilməz faktlarla sübuta yetirilib.

**Mustafa KAMAL,**
**"Respublika".**